# Daxili işlər orqanlarına sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbul ELAN EDİLİR

Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə 17.05.2016-cı il tarixdə saat 10⁰⁰-da Qəbələ rayon polis şöbəsində keçiriləcək sıra baxışında müddətli həqiqi hərbi xidmət keçmiş, ali və orta-ixtisas, yaxud tam orta təhsilli, boyu 175 sanimetrdən yuxarı, yaşı 20-dən 25-dək olan, özü və yaxın qohumları məhkum olunmamış, atletik cüssəli, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Bununla yanaşı «İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə» Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində mülki işçi vəzifələrinə də Azərbaycan Respublikası vətəndaşlarının qəbulu ilə əlaqədar sıra baxışı keçiriləcəkdir.

Sıra baxışında müddətli həqiqi hərbi xidməti keçmiş, ali və orta-ixtisas, yaxud tam orta təhsilli, boyu 175 santimetrdən yuxarı, yaşı 20-24-dək olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlar iştirak edə bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

İnternet ünvan: www.mia.gov.az.

**Qəbələ RPŞ-nin əlaqə tel:** (024) 205 18 28, (024) 205 18 22.

**QƏBƏLƏ RAYON POLİS ŞÖBƏSİ.**

# «Piyadalar, diqqətli olun» şərti adı altında «hərəkətin təhlükəsizliyi həftəliyi» başlamışdır

Respublikada nəqliyyat vasitələri sayının ilbəil artması hərəkət intensivliyinin yüksəlməsi ilə nəticələnmiş, mövcud vəziyyətdə yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün, xüsusilə də piyadaların yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması sahəsində əlavə tədbirlərin görülməsinə zərurət yaranmışdır. Təhlil göstərir ki, təkcə cari ilin 3 ayı ərzində respublika ərazisində piyadaların vurulması ilə bağlı 171 yol-nəqliyyat hadisəsi qeydə alınmış, nəticədə 64 nəfər həlak olmuş, 119 nəfər isə yaralanmışdır. Bu hadisələr ümumilikdə ölkədə baş verən yol- nəqliyyat hadisələrinin 40,8 faizini, Bakı şəhərində isə 57,8 %-ni təşkil edir. Həlak olan piyadalardan 6 nəfəri, xəsarət alanlardan isə 35 nəfəri azyaşlı uşaqlar olmuşlar.

Qəzaların sayının, eləcə də bu qəzalarda ölən və yaralananların sayının ötən ilin müvafiq dövrü ilə müqayisədə azalmasına baxmayaraq araşdırmalar göstərir ki, əksər hallarda belə hadisələrin baş verməsində sürücülərlə yanaşı piyadalar da təqsirli olduqları halda onların yol hərəkəti qaydalarını pozmalarına qarşı görülən inzibati tənbeh və təbliğat tədbirləri, xüsusilə də azyaşlılar və gənclərlə aparılan iş hələ də lazımi səviyyədə təşkil edilməmişdir.

Yay mövsümünün başlaması ilə əlaqədar küçə və yollarda piyadaların hərəkət intensivliyinin, eləcə də təhlillərə əsasən piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələri sayının məhz may ayının ilk dekadasında artmasının müşahidə edildiyini nəzərə alaraq, qəzaların qarşısının alınması, hərəkət iştirakçıları, xüsusilədə piyadalar arasında intizamın möhkəmləndirilməsi məqsədilə 2016-cı il may ayının 1-dən 7-dək respublika ərazisində «Piyadalar, diqqətli olun» şərti adı altında hərəkətin təhlükəsizliyi həftəliyi keçirilir.

Piyadalar, diqqətli olun, ən qiymətli həyatınızı qəzalardan qoruyun!

**QƏBƏLƏ RAYON POLİS ŞÖBƏSİNİN DÖVLƏT YOL POLİSİ BÖLMƏSİ.**


**«Qəbələ» qəzetinə**

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

**Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.**

**Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**

**Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.**


# "Qəbələ" Lənkəranda 1 qolla kifayətləndi

Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXI turun görüşlərindən biri Lənkəranda baş tutub. Oyunda "Xəzər Lənkəran" komandası avrokuboklar üçün mübarizə aparan



"Qəbələ"ni qəbul edib. Belə ki, matç qonaqların minimal hesablı qələbəsi ilə başa çatıb. "Qəbələ"nin yeganə qalibiyyət qolu oyunun səkkizinci dəqiqəsində vurulub. Aleksey Qay komandasına üç xalı qazandırıb-0:1. Beləliklə, Roman Qriqorçukun komandası qələbə sayəsində xallarını 49-a çatdırmaqla turnir cədvəlində üçüncü pilləyə yüksəlib.

## Təbrik edirik!



**Əzizimiz Aynur!**

12 yaşın tamam olması münasibətilə səni təbrik edirik! Arzu edirik ki, böyük qız olasan, valideynlərin, yaxınların, bütün əzizlərin, ən başlıcası Vətən üçün şərəfli və layiqli övlad olasan. Başın hər zaman uca olsun! Sən hər zaman qəlbimizdəsən.

***Baban Arif, nənən Gülayət, atan Rəşad, dayın Rəhim, daydostun Çinarə, bacın Aysel, qardaşın Anar.***

## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Yengicə kənd sakini **Qafarov Vəlyəddin Aləddin oğlunun və ailə üzvlərinin** adına verilmiş JN:0055 №-li (kod 40616038) olan **Torpağa müllkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon-Aqrar İslahat Komissiysı tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə (kənd) sakini Tahirov Maarif Bahəddin oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 1008 nömrəli (kodu 40600048) Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi Ceyhun Əhmədov və kollektivi iş yoldaşları Bəxtiyar Nürəddinova, anası,

**SİYASƏT XANIMIN**

vəfatı ilə əlaqədar başsağlığı verirlər.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.